***Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir.***

***Heydər Əliyev***

**UOT327**

# TÜRK DÖVLƏTLƏRİNİN BEYNƏLXALQ TƏŞKİLATLAR ÇƏRÇİVƏSİNDƏ MƏDƏNİ İNTEQRASİYASI: MÖVCUD REALLIQLAR VƏ PERSPEKTİVLƏR

**Xuraman ƏLİYEVA***

***Açar sözlər:*** *türk xalqları, inteqrasiya, forumlar, türkdilli ölkələr, mədəni irs*

Müasir dövrdə türk mədəniyyətlərinin qarşılıqlı inteqrasiyasının forma və üsulları, məzmun istiqamətləri məhz bu geniş sahələrin inkişafına görə təyin olunur. XIX əsrin sonları-XX əsrin əvvəllərindən nəzərə çarpacaq dərəcədə inkişaf etməyə başlayan türk xalqlarının inteqrasiyası prosesi müxtəlif dövr və mərhələləri arxada qoymuş və müasir dövrdə sürətli qaynaşma prosesini yaşatmaqdadır. Mədəniyyət millilik və bəşəriliyin dialektikasını ehtiva etdiyi üçün mədəni miraslar milli olmaqla yanaşı, bütün millətlərə məxsusdur. Bu istiqamətdə qloballaşan dünyada milliliyin yolunun bəşərilikdən keçdiyini söyləyə bilərik. Yaxud bəşəriyyət milli mədəniyyətlərin qorunması və inteqrasiyası ilə nizamını qoruya bilir. Müasir dövrdə türk xalqları mədəni münasibətlərini öz aralarında qurmaqla yanaşı, dünyaya inteqrasiyasını reallaşdırmağa, türk dünyası məfhumunu canlandırmağa çalışırlar. Bütün səy və fəaliyyətlər müsbət nəticəli olsa belə, həllini gözləyən məsələlərin zəruriliyi yenə də ortaya çıxmaqdadır.

**Dünyanın nüfuzlu beynəlxalq təşkilatlarında təmsil olunan türkdilli dövlətlər, onların həmin təşkilatlardakı mövqeyi və təsir imkanları türk xalqlarının dünyaya, Qərbə inteqrasiyasını şərtləndirən mühüm məsələlərdir.** Türkdilli dövlətlər arasında siyasi, iqtisadi və mədəni əlaqələr Sovet imperiyasının dağılmasından sonra 1991-ci ildən, yəni ölkələrimiz müstəqilliyini qazandıqdan sonra yaranmağa başlamışdır. Azərbaycan, Qazaxıstan, Türkmənistan, Özbəkistan və Qırğızıstan kimi yeni müstəqillik qazanmış türk respublikaları ilə Türkiyə arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə inteqrasiyaya nail olmaq türk respublikalarının dövlət siyasətinin başlıca prinsipinə çevrilmişdir.

Türk xalqlarının ortaq mədəni-mənəvi dəyərlərlə biri-birinə bağlılığı müasir münasibətlərin əməkdaş və tərəfdaş ölkələr kimi qurulmasını şərtləndirir. Türk xalqlarının arasında qurulan əməkdaşlıq onların dünyaya açılmasında mühüm məsələdir. Dünyada durmadan artan gərginlik, Şərq dünyasının altının üstünə çevrilməsi kimi gizli cəhdlərə qarşı özünümüdafiə məqsədli türk xalqlarının beynəlxalq səviyyədə əməkdaşlığı, mədəni münasibətləri müasir dövrdə həyata keçirilməsi zəruri məsələlərdir. Öz milli maraqlarını müdafiə etmələri, dünyaya qaynaşmaları üçün beynəlxalq səviyyədə əməkdaşlıq təşkilatlarının rolu müstəsnadır. Türk xalqlarının beynəlxalq və məhalli təşkilatlar çərçivəsində əməkdaşlığı, Türk Dövlət Başçılarının Zirvə Toplantıları tarixən ortaq olan xalqlarımızın ictimai-siyasi, mədəni-mənəvi problemlərini müasir dünyanın ortaq məsələlərinə çevirir,

*filologiya üzrə fəlsəfə doktoru, AMEA akad.Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu

əməkdaşlıqların gələcək inkişaf yolları və perspektivlərini müəyyənləşdirir. Türk dövlətlərinin Başçılarının, yaxud yüksək rütbəli dövlət nümayəndələrinin iştirakı ilə reallaşan Zirvə görüşləri 1992-ci ildən etibarən təşkil olunmuşdur. Ankarada gerçəkləşən I Zirvə Toplantısı tarixi bir günə - Türkiyə Cümhuriyyətinin 69-cu ildönümünə təsadüf etmişdi. Türkdilli dövlət başçılarının bir araya gəldiyi tədbirdə o dövrdə prezident olan Turqut Özal "Sovetlər Birliyi dağıldıqdan sonra sizin müstəqilliyinizi hamıdan tez tanıyan və ölkələrinizlə birinci olaraq diplomatik əlaqə yaradan Türkiyə dövləti olmuşdur. Xalqlarımızı bir-birinə ümumi dinimiz, dilimiz, kökümüz və mədəniyyətimiz bağlayır. Biz əl-ələ verib bu imkanlardan istifadə edərək onları xalqımızın rifahına yönəltməliyik" (3) söyləmişdi. Birinci Zirvə Toplantısının sonunda imzalanmış Ankara Bəyannaməsində bundan sonra belə görüşlərin müntəzəm olaraq keçirilməsi, müstəqilliyin qorunub saxlanması və daha da möhkəmləndirilməsi yönündə qarşılıqlı əlaqələri intensivləşdirməyin zəruri olması xüsusi vurğulanmışdır.

30.10.1992 – Ankara, 18.10.1994 – İstanbul, 28.08.1995 – Bişkek, 21.10.1996– Daşkənd, 09.06.1998 – Astana, 08.04.2000 – Bakı, 26.04.2001 – İstanbul, 17.11.2006 – Antalya, 03.10.2009 – Naxçıvan, 15.09.2010 tarixində İstanbulda (14) baş tutan Zirvə görüşləri iqtisadi, siyasi, regional, həmçinin mədəni əməkdaşlığın qarşısında duran məsələlərin həlli yolları haqqında saziş və bəyannamələrlə yekunlaşmışdır. Naxçıvan Zirvəsində, Türkdilli ölkələrin dövlət başçılarının IX Zirvə Toplantısında imzalanmış "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan Sazişi" əsasında təsis edilmiş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sonrakı illərdə türkdilli dövlətlər arasında qarşılıqlı əlaqələrin möhkəmləndirilməsində rolu böyük əhəmiyyət daşıyır. 2010-cu ildə keçirilən İstanbul Zirvəsi mədəni aspektdən türk xalqlarının həyatında daha mühüm əhəmiyyət kəsb edir. Belə ki, İstanbul Zirvəsində "Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) ortaq dəyərlərin müəyyən edilməsi, zənginləşdirilməsi, yayılması və təşviqində, həmçinin türkdilli ölkələr və xalqlar arasında mədəni əlaqələrin dərinləşdirilməsində mühüm bir vəzifəni yerinə yetirdiyi, dünya sivilizasiyasının inkişafına əhəmiyyətli töhfə vermiş zəngin türk mədəni irsinin qorunması məqsədilə Bakıda Türk Mədəniyyətinə Dəstək və Türk İrsinin Qorunması Fondunun yaradılması ilə əlaqədar təşəbbüsünün həyata keçirilməsinin əhəmiyyəti, 2012-ci ildə Astananın Türk Mədəniyyətinin Paytaxtı elan olunması ilə bağlı TÜRKSOY-un təklifini dəstəklənməsi" (14) kimi məsələlər İstanbul bəyannaməsinin əsas müddəalarıdır. Ümumiyyətlə, Zirvə görüşlərinin perspektivləri içərisində "türk dünyasının ortaq əlifbasını yaratmaq, türk ləhcələrinin qarşılıqlı lüğətini hazırlamaq, ortaq türk tarixi kitabını və antologiyasını yaratmaq, ortak türk tarixi institutu qurmaq, təhsil nazirlikləri və universitetlər arasında əməkdaşlığı ən üst səviyyəyə qaldırmaq, qarşılıqlı təqaüdlü tələbə və şagird mübadiləsini həyata keçirmək" (14) kimi türk dünyasını mədəni baxımdan vahidləşdirməyə, dünyaya mədəni inteqrasiyasını inkişaf etdirməyə yönəlik hədəflər mühüm əhəmiyyət kəsb edir.

Müasir dövrdə türkdilli ölkələrin əməkdaşlığı istiqamətində atılan mühüm addımlardan biri Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) yaradılmasıdır ki, əməkdaşlıq şurası müasir hərtərəfli əlaqələrə, o cümlədən mədəni münasibətlərə yeni cığırlar açmışdır. Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə kimi türk dövlətlərinin təsisçisi olduğu "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası, TDƏŞ) fəaliyyətinin əsas məqsədi türkdilli ölkələr arasında hərtərəfli əməkdaşlığa yardım etmək olan beynəlxalq hökumətlərarası təşkilatdır. Təşkilat türkdilli ölkələrin dövlət başçılarının 3 oktyabr 2009-cu il tarixində Naxçıvan şəhərində keçirilən Zirvə görüşündə imzalanmış Naxçıvan Sazişinə əsasən yaradılmışdır.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası beynəlxalq əməkdaşlığa böyük önəm verərək, türk xalqlarının dünyaya, Qərbə inteqrasiyasının inkişafına xüsusi diqqət göstərir. "Şura artıq İslam

Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, ATƏT, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri Müşavirəsi, BMT, Ümumdünya Turizm Təşkilatı ilə əlaqələr qurmuşdur" (15).

22-23 avqust 2012-ci il tarixlərində Bişkek şəhərində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının **II Zirvə görüşü** keçirilmişdir ki, görüş türk dövlətləri arasında mədəni əlaqələrin inkişafı və perspektivlərinə həsr olunmuşdur. Zirvə görüşünün mövzusu "Təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlıq" olmuşdur. Məhz burada II Zirvə görüşündə bağlanan sazişə əsasən Türk Akademiyası 2010-cu ildə Qazaxıstanda qeydiyyatdan keçmiş təşkilat olaraq fəaliyyətə başlamış, akademiyaya beynəlxalq status verilmişdir. Türk dilinin, ədəbiyyatının, mədəniyyətinin və etnoqrafiyasının tədqiqini koordinasiya və təşviq etmək məqsədilə fəaliyyət göstərən Türk Akademiyası Astanada yerləşir. Türk xalqlarının mədəni və mənəvi irsinin tədqiq edilməsi, dünya sivilizasiyasının inkişafında payının artırılması, dünya ictimaiyyətinin türk xalqlarının nailiyyətləri haqqında məlumatlandırılması Akademiyanın fəaliyyət məqsədlərindəndir. Bişkek Zirvəsində, həmçinin Türk Mədəniyyəti və İrsi Fondunun Nizamnaməsi imzalanmışdır. Qərargahı Bakıdadır.

TDƏŞ-ə Azərbaycan Respublikasının sədrliyi dövrü hərtərəfli, xüsusilə mədəni əməkdaşlıq baxımından xüsusi dövr kimi seçilir. Məhz bu dövrdə mübadilə proqramlarının dəstəklənməsi, dərsliklərin hazırlanması, ali təhsil müəssisələrində türk xalqlarının dillərinin tədrisi, universitetlərarası əməkdaşlıq və digər elm və təhsil məsələləri öz həlli yollarını tapmış oldu.

Qeyd etdiyimiz kimi, TÜRKSOY, Türkdilli Ölkələrin Parlament Assambleyası, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, Türk Biznes Şurası kimi təşkilatlar Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının çərçivəsində fəaliyyət göstərir. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası üst, digərləri isə alt təşkilatlar kimi fəaliyyətdədir.

Türkdilli ölkələrin dövlət başçıları arasındakı əməkdaşlığın ilk real göstəricisi, türk dünyasının hərtərəfli, xüsusilə mədəni əməkdaşlıqların inkişafı, türk xalqlarının ortaq dəyərlərinin beynəlxalq səviyyədə tanıdılması, tarixi kökləri olan mədəni əlaqələrin yeni mərhələsini yaratmaq məqsədilə Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) yaranmasıdır. Naxçıvan Sazişinin 4-cü maddəsinə görə, elm, təhsil, mədəniyyət və incəsənət sahəsində əməkdaşlığın dərinləşdirilməsi, inkişaf və perspektivlərinin müəyyənləşdirilməsinə xidmət edən beynəlxalq təşkilat müstəqillik dövrünün ən fəal mədəni təşkilatlarındandır. "Türkdilli ölkələrin dövlət başçılarının 2006-cı il noyabrın 17-də Antalyada keçirilən 8-ci Zirvə görüşündə Prezident İlham Əliyev TÜRKSOY-un fəaliyyəti nəticəsində türk xalqlarının bir-birinə daha da yaxınlaşdığını qeyd etmişdir. TÜRKSOY 1993-cü ildə Almatıda 6 türk dövlətinin mədəniyyət nazirləri tərəfindən imzalanmış müqavilə əsasında yaradılmışdır. 1993-cü il iyulun 12-də Almatı şəhərində Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Türkiyə respublikalarının mədəniyyət nazirləri "TÜRKSOY-un strukturu və fəaliyyət prinsipləri haqqında Müqavilə" imzaladılar" (11). Türkdilli ölkə və xalqların mədəniyyət və sənətini qorumaq, inkişaf etdirmək və yenidən canlandırmaq, türkdilli ölkələrin gələcək nəsillərinə milli mədəniyyətin əsaslarını öyrətmək məqsədli TÜRKSOY-un fəaliyyətində Azərbaycan təmsilçiliyi önəmli yer tutur. Həmçinin qeyd etmək lazımdır ki, Azərbaycan xalqının erməni təcavüzü nəticəsində işğal altında qalan milli-mədəni miraslarının harayını dünyada səsləndirmək məhz bu təşkilatın fəaliyyəti nəticəsində reallaşmaqdadır. YUNESKO kimi böyük bir təşkilatla müqayisə edə biləcəyimiz TÜRKSOY yarandığı gündən günümüzədək türk xalqlarının mədəni əlaqələri çərçivəsində mədəniyyətlərimizi inkişaf etdirmək, dünyaya çatdırmaq baxımından müstəsna xidmətləri olan beynəlxalq mədəni təşkilatdır. Ədəbiyyat, sənət, mədəniyyət sahələrində böyük layihələr gerçəkləşdirən TÜRKSOY türk xalqlarının qardaşlığını, dil birliyini, ortaq türk mədəniyyə-

tini gələcək nəsillərə çatdırmaq üçün türk mədəniyyəti nümunələrini araşdırmaq, öyrənmək, qorumaq və dünyaya çatdırmaq, türk xalqlarının mədəniyyətində tarixi, siyasi və coğrafi səbəblərdən və xarici ölkələrin təsiri altında yaranmış fərqləri aradan qaldırmaq, dünya mədəniyyətində mühüm yer tutan türk mədəniyyətini digər yerlərdə də yaymaq, türk mədəniyyət, incəsənət və arxiv sənədlərinin qorunması üçün mərkəz yaratmaq və s. kimi məramlarla fəaliyyət göstərən beynəlxalq mədəniyyət təşkilatıdır. “2017-ci il 7 dekabrda Azərbaycan Dövlət Pedaqoji Universitetində Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) kafedrası açılmışdır. Bu kafedranın açılması türk dünyasının həmrəyliyi, birliyi, eləcə də türk ədəbiyyatının, tarixinin, mədəniyyətinin elmi tədqiqi və təbliği istiqamətində mühüm əhəmiyyət daşıyır” (8). TÜRKSOY tərəfindən Avropa və Amerikada, BMT-nin baş qərargahında keçirilən mədəni tədbirlər türk xalqlarının Qərbə mədəni inteqrasiyanın mühüm hadisələrindəndir.

Müstəqillik dövründə Şərq və Qərb arasında körpü olan Azərbaycanın simasında türk xalqlarının dünyaya mədəni qaynaşması ilə bağlı bir sıra tədbir və mühüm məsələlər həyata keçirilmişdir. Şərq və Qərb münasibətlərinin ayrı-ayrı yönlərindən bəhs edən kitabların nəşri və yayılması, müzakirələrə çıxarılması mühüm əhəmiyyətə malikdir. 2014-cü ilin mart ayında Azərbaycan Mədəniyyət Mərkəzi, Belqraddakı Azərbaycan Mədəniyyət Mərkəzinin dəstəyi ilə xalq yazıçısı Çingiz Abdullayevin boşnak dilinə tərcümə edilmiş “Avropanın opponentləri” və millət vəkili Cavanşir Feyziyevin boşnak dilinə tərcümə edilmiş “Türk Dövlətləri Birliyi: Qlobal inteqrasiyanın Avrasiya modeli” (16) kitablarının təqdimatı keçirilmişdir. 2016-cı ildə **“Türk Dövlətləri Birliyi: qlobal inteqrasiyanın Avrasiya modeli” Beynəlxalq Türk Akademiyası tərəfindən qazax dilinə tərcümə edilmişdir.** Qazaxıstanda təqdimatı keçirilən kitabın elmi-ictimai məziyyətlərindən bəhs edən Lev Qumilyov adına Qazaxıstan Milli Avrasiya Universitetinin professoru Janar Medeubayeva “Kitabda türk dünyasının birləşməsi üçün irəli sürülən mülahizələrdə demokratiklik, tam hüquqluluq və ədalətlilik prinsipləri önə çəkilib və bu qaydalar da hər zaman qədim türklərin yaşam tərzi olub. Bu əsər elm ocaqları üçün dolğun bir dərs vəsaitidir və tələbə-müəllim heyəti kitabdan dəyərli məlumatlar alacaqlar” (12) kimi fikirləri ilə dəyərləndirib. 2018-ci ildə müəllifin “Türk dünyası” adlı beş cilddən ibarət kitabı işıq üzü gördü.

1991-ci ildən etibarən Türkiyə Cumhuriyyəti, Azərbaycan Respublikası, Qazaxıstan, Türkmənistan, Özbəkistan, Qırğızıstan kimi türk cümhuriyyətləri yenidən qaynaşmağa, hərtərəfli və eyni zamanda mədəni münasibətlərini canlandırmağa başladılar. Lakin bu demək deyildir ki, Sovet ittifaqında birləşən türk xalqlarının inteqrasiyası prosesi mövcud deyildi. Ulu Öndər Heydər Əliyev Sovet xalqları adı altında türk xalqlarının mədəni inteqrasiyasının təşəbbüskarı və icraçısı idi. Bəlli sistemin qaydalarına əsasən açıq şəkildə həyata keçirilməyən türk xalqlarının mədəni inteqrasiyası məzmun və mahiyyəti ilə türk xalqlarını tarixi təməllər üzərində birləşdirirdi. Sovet dövründə türk xalqlarının dillərinin, tarixinin və mədəniyyətinin öyrənilməsinə həsr olunan elmi araşdırmalar Azərbaycan elminin, şərqşünaslığının, türkologiyasının bütün dövrlərinə işıq tutacaq elmi məxəzlərdir. Azərbaycan xalqı Sovet hakimiyyəti illərində də böyük mədəniyyət məhsuldarlığı nümayiş etdirmişdir. Ədəbiyyat tarixində, mədəniyyət tariximizdə yer alan bir çox yüksək səviyyəli sənət əsərləri bu dövrün payına düşür.

## ƏDƏBİYYAT


1. I Türkoloji Qurultay: görünən və görünməyən tərəflər. Elmi sessiyanın materialları (10 iyun 2016-cı il). Bakı: Elm və təhsil nəşriyyatı, 2016, -100 səh.
2. Mirzəzadə R. Multikulturalizm siyasəti və Şərq-Qərb müxtəlifliyi; gender, din və mənəviyyat. Bakı, Təknur, 2013, 160 s.
3. Məmmədov F. Müasir dövrdə Türkdilli dövlətlər arasında inteqrasiyanın strukturlaşması, http://www.turansam.org/makale.php?id=1569, 04.10.2018
4. Həbibbəyli İ. Multikulturalizm yollarında: ədəbi-tarixi ənənələr və müasir dövr, Yan 10, 2017, http://nizamimuseum.az/az/news/1268, 23.09.2018
5. Həbibbəyli Ə. Sivilizasiyaların kəsişməsində Türk dünyası, “Elm və Təhsil”, Bakı, 2011, 264 s (http://elibrary.bsu.az/books_460/N_350.pdf)
6. Xəlilov S. Fəlsəfə: tarix və müasirlik (fəlsəfi komparavistika) Bakı, «Azərbaycan Universiteti» nəşriyyatı, 2006, 420 səh.
7. Səlahəddin Xəlilov, Şərq və Qərb arasında ədəbiyyat körpüsü, http://azkurs.org/serq-qerb-tedqiqat-merkezi-selaheddin-xelilov.html?page=3, 12.09.2017
8. İsmayılova Y. TÜRKSOY mədəniyyətimizin inteqrasiyasında əvəzsiz gücə malikdir, http://sia.az/az/news/social/686147.html, 03.10.2018
9. Xarici siyasətimizdə türkdilli dövlətlərlə əməkdaşlıq mühüm istiqamətlərdəndir, “Xalq” qəzeti. - 2017.- 27 avqust. - ¹ 187. - s. 1.
10. Türk Mədəniyyəti və İrsi Fondu, https://az.wikipedia.org/wiki/T%C3%BCrk_M%C9%99d%C9%99niyy%C9%99ti_v%C9%99_%C4%B0rsi_Fondu, 01.10.2018
11. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının qurumları, http://islamworld.preslib.az/page/SdZITRO5mP, 29.11.2018
12. “Türk Dövlətləri Birliyi: Qlobal inteqrasiyanın Avrasiya modeli” kitabı, https://azertag.az/xeber/Turk_Dovletleri_Birliyi_Qlobal_inteqrasiyanin_Avrasiya_modeli_kitabi_turk_dunyasinin_problemlerine_yeni_elmi_metodoloji_yanasmanin_ugurlu_numunesidir-58271, 29.11.2018
13. Qoşalı Əkbər, Millət vəkilinin "Türk dünyası", Türk dünyasının millət vəkili, http://modern.az/az/news/174398#gsc.tab=0, 05.10.2018
14. Şahidov Ə. Türk dövlətləri başçılarının zirvə toplantıları, http://www.shahidov.com/turk-dovl%C9%99tl%C9%99ri-bascilarinin-zirv%C9%99-toplantilari/ 13.11.2018
15. http://www.mfa.gov.az/content/948, 01.10.2018
16. https://azertag.az/xeber/Sarayevoda_Azerbaycanin_Xalq_Yazichisinin_ve_Milli_Meclisin_deputatinin_kitablarinin_teqdimati_olub-1008290, 28.11.2018

***Резюме***

***Хураман Алиева***

***Культурная интеграция тюркских государств в рамках международных организаций: реальности и перспективы***

***Ключевые слова:*** *тюркские народы, интеграция, форумы, тюркоязычныестраны, культурное наследие.*

В статье рассматриваются формы и способы, содержательные направления взаимной интеграции тюркской культуры насовременном этапе. В частности, отмечается, чтомеждународное содружество Совета Сотрудничества Тюркских Государств, Организации Международной Тюркской Культуры (Тюрксой) служат своего рода мостом между Востоком и Западом.

С 1991-го года после восстановленияАзербайджаном независимости началось политическое, экономическое, культурное сотрудничество между тюркскими государствами, что стало основным принципом их государственной политики. Глобальная интеграция реализовала издавна желаемое единство тюркских государств и их народов.



***Summary***

***Khuraman Aliyeva***

***The cultural integration of the Turkic states within the bounds of international organizations: realities and perspectives***

***Keywords:*** *the Turkic peoples, integration, forum, Turkic language countries, cultural legacy*

The article deals with the forms and ways, substantial directions of the mutual integration of the Turkic cultures at present times. It is noted that the international collaboration of the Collaboration council of Turkic States, Organizations of International Turkic Culture (Turksoy) are as an original bridge between the East and West.

In 1991 Azerbaijan gained independence; since that time there has been political, economic, cultural and other collaboration between the Turkic peoples.It has become a main principle of their state policy. Global integration has realized the desired unity of the Turkic states and their peoples.